Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Uşaqların maraq dünyasında əlamətdar tarixi günlər №3

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsi tərəfindən uşaqlar üçün maraq kəsb edən əlamətdar tarixi günlərə həsr olunmuş mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı - 2017**

**Tərtibçi:** **Könül Səmədzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Uşaqların maraq dünyasında əlamətdar tarixi günlər№3:** metodik vəsait / tərt.ed. K. Səmədzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. - Bakı, 2017. - 67 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçi:

Müasir dünyada uşaqların maraq dünyasına aid olan bir çox ələmatdar tarixi günlər qeyd edilir. Hər il belə əlamətdar tarixi günlərin keçirilməsi demək olar ki, bir ənənəyə çevrilib. Respublikamızın hər bir təhsil ocaqlarında, elm və mədəniyyət sahələrində, eləcə də F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da belə günlərin keçirilməsi nəzərdə tutulmuşdur. F. Köçərli adına Respublika Uşaq kitabxanasının "Elmi-metodika" şöbəsi tərəfindən hər il hazırlanan "Ələmətdar tarixi günlər təqviminə" əsasən belə günlər seçilir və tədbirlərin hazırlanmasi üçün kitabxanaçılara təqdim olunur. Kitabxanaçı öz növbəsində belə günlərin keçirilməsi üçün müxtəlif mövzular əsasında metodiki vəsaitlər hazırlayır. Bu vəsaitə əsasən tədbirlər keçirilir. Vəsaitdə qeyd olunan Ələmətdar tarixi günləri sizlər üçün təqdim edirik:Beynəlxalq Meşə günü (21.03.2013) , Beynəlxalq Quşlar günü (1.04.1894), Ümumdünya Ətraf Mühitin Müdafiəsi Günü (05.06.1972), Ümumdünya Qarpız Günü (03.08), Ümumdünya Balina və Delfinlər Günü (23.07.1986), Beynəlxalq Yarasalar Gecəsi (20-21.09), Filləri Ümumdünya Müdafiə Günü (22. 09), Beynəlxalq Dovşanlar Günü (27.09), Ümumdünya Düyü Günü (20.09.2004), Ümumdünya Heyvanları Müdafiə Günü (04.10.1931), Ümumdünya Yumurta Günü (13.10.2017), Morj Günü (24. 11.2008), Ümumdünya Ev Heyvanları Günü (30.11.1931), Beynəlxalq Dağlar Günü (11.12.2003), Beynəlxalq Çay Günü (15.12.2004-2005). Belə metodiki vəsaitlərdə hər bir əlamətdar günün yaranması haqqında məlumatlar, həmin tarixlərlə əlaqədar keçiriləcək tədbirlərdən nümunələr verilir. Vəsait məktəb, lisey, gimnaziya tələbələri, kitabxana, muzey işçiləri, müəllimlər və s. üçün nəzərdə tutulmuşdur. Hazırlanmış vəsaiti sizlər üçün təqdim edirik.

## 21 mart-Ümümdünya Yer kürəsi və Beynəlxalq Meşələr Günüdür

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 2012-ci ildə martın 21-ni "Beynəlxalq Meşələr (meşə və ağaclar) günü" elan edib. Bu gün bütün meşə tiplərinin ekoloji vacibliyi vurğulanır, onların qorunmasına və artırılmasına diqqət yönəldilir. Hər il bu gün ölkələrdə ağacəkmə aksiyaları, regional və beynəlxalq fəaliyyətlər, təşviqat və təbliğat işləri ilə yadda qalır.

Dünya üzrə meşə örtüyünün sahəsi 4 milyard hektardır. Bunun 809 milyon hektarı Rusiya Federasiyasının, 478 milyon hektarı Braziliyanın, 310 milyon hektarı Kanadanın və 303 milyon hektarı ABŞ-ın payına düşür. Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalıb.

XVIII-XIX əsrlərdə indiki Azərbaycan ərazisinin 35 faizi meşə ilə örtülü olub. Hazırda ölkəmizdə meşələrin ümumi sahəsi 1021 min hektardır. Bu da respublika ərazisinin 11,8 faizini təşkil edir. Ölkəmizin meşə ehtiyatının 49 faizi Böyük Qafqaz, 34 faizi Kiçik Qafqaz, 15 faizi Talış və 2 faizi Aran zonasının (Naxçıvan MR ilə birlikdə) payına düşür. Azərbaycanda adambaşına düşən meşə sahəsi 0,12 hektardır. Hazırda 261 min hektar meşə fondu sahəsi Ermənistan tərəfindən işğal edilib.

BMT-nin Baş Məclisinin qərarı ilə 2013-cü ildən etibarən hər il martın 21-də qeyd ediləcək Beynəlxalq Meşə Günü meşələrin və meşə sahələrinin Yer kürəsində davamlı inkişaf və təhlükəsizlik üçün böyük əhəmiyyət daşımasına diqqəti cəlb etmək məqsədi güdür. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı Baş Məclisin bu qərarını alqışlamış və üzv dövlətləri həmin gün xüsusi tədbirlər, o cümlədən ağacəkmə kampaniyaları keçirilməsini dəstəkləməyə çağırmışdır.

Yer kürəsi ərazisinin quru hissəsinin 31 faizi meşələrlə örtülmüşdür. Haqlı olaraq meşələri planetimizin ağ ciyərləri

adlandırırlar. Yerin ekoloji sistemləri və atmosfer arasında karbon qazı mübadiləsi prosesində meşələr mühüm yer tutur. Dünyadakı meşələrin 13 faizi xüsusi qorunan təbii ərazilərə aiddir. Son illərdə meşələrin qırılması, deqradasiya və yanğınlar nəticəsində Yer kürəsində meşələrin təhlükəli dərəcədə azalması meylləri bütün beynəlxalq birliyi ciddi narahat edir.

Yaşıllıqlar-yaşıl libaslı örtüklər evlərimizə, həyət-bacalarımıza oldugu kimi, şəhərlərimizə, kəndlərimizə, küçə və meydanlarımıza, bag və parklarımıza da xüsusu gözəllik verir. Yaşıllıq göz işığı oldugundan əhval-ruhiyyəmizin yüksək olması da müəyyən dərəcədə bu amildən asılıdır. Nahaq demirlər ki, insan təbiətlə sıx təmasdadır. Yaşıllıq saglamlıq, gümrahlıq rəmzi olmaqla bərabər, onun başlıca amilidir. İnsan orqanizmi üçün lazım olan təmiz havanı-oksigeni məhz bu mənbədən alırıq. Ağ ciyərlərimizin normal və saglam fəaliyyəti də əsasən bu mənbədən qidalanır.

Alimlərin hesablamalarına görə, bir çınar ağacı gündə 200 kubmetr su buxarlandırır. Həmin ağac 10 saat ərzində 20,5 kiloqram karbon qazı mənimsəyir. 12 kiloqram isə oksigen buraxır. Bir ağacın bir gündə buraxdığı oksigen həmin vaxt ərzində 58 adama kifayət edir. Təbii ki, şəhərlərin yaşıl örtüyə ehtiyacları daha çoxdur. Təkcə o mənada yox ki, sənaye müəssələri, ocaqxana və qazanxanalar atmosferə müəyyən ziyanlar vurur, zəhərlər ötürür. Həm də o mənada ki, bu iri yaşayış məskənlərində adambaşına düşən yaşıl aləm azlıq təşkil edir. Nahaq deməyiblər: "Agacı çox olan yerin məzarı az olar". Meşə müxtəlif növ ağaclar, otlar, yabanı meyvələr, cürbəcür təbiət mənzərələri, heyvanat aləmi, ümumiyyətlə zəngin flora, fauna və sularla zəngin olduğu üçün, həm də, insanlar üçün ən zəngin estetik zövq mənbəyidir. Meşənin təkcə mənzərəsi, bitki örtüyü və heyvanlar aləmi deyil, onun oksigenlə zəngin olan təmiz havası da insana xoş təsir göstərir.



**Azərbaycan meşəsi az olan ölkələr siyahısındadır. Onun ərazisinin cəmi 11, 4 faizi meşə ilə örtülüdür. Ölkə ərazisində meşələr pərakəndə yayılmışdır. Ümumi ərazimizin 57 faizi düzənliklərdən ibarət olduğundan, burada meşə örtüyünün sahəsi 5-6 faizə bərabərdir. Meşələrimizin qalan 94-95 faizi isə daglıq və dağətəyi bölgələrdə yerləşir.**
Daşıdıqları funksiyalara görə, meşələrimiz 1-ci qrupa aiddir. Yəni, onlar sırf torpaq qoruyucusu, su saxlayıcısı, iqlim tənzimləyicisi və s. kimi xeyirli funksiyalar yerinə yetirir. Bu səbəbdən də meşələrimizdə sənaye əhəmiyyətli qırıntılar aparılması qadağan edilmişdir. Meşələrdə, yalnız məhsuldarlığı artırmaq, cins tərkibini yaxşılaşdırmaq, qoruyucu funksiyaları yüksəltmək məqsədilə hər il xidməti qırıntılar aparılır və yeni meşəliklər salınır.

Məlum səbəblərə görə, biz iyirmi beş ildən çoxdur ki, işğal altında olan ərazilərdən və Daglıq Qarabağ bölgəsindəki meşələrimizdən ayri düşmüşük. Vaxtilə bir armud ağacının kəsilməsi ilə kəskinləşən münaqişə işğal altında olan 260 min hektarlıq meşələrimizin faciəsinə çevrilmişdir. Bu, respublikamızın ümumi meşə ərazisinin 20 faizini təşkil edir. Agdam, Zəngilan, Cəbrayıl, Füzuli, Laçın, Qubadlı, Kəlbəcər, Xankəndi, Xocavənd, Şuşa və Ağdərə rayonlarının

ərazilərindəki meşələrdə dag palıdı, fıstıq, vələs, ağcaqayın, adi qoz, şərq çinarı, araz palıdı, qaraçöhrə, ayı fındığı və s. kimi qiymətli ağac növləri yetişirdi. Respublikamızın işğal altında olan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən operativ mərkəzin hesabatında qeyd edilir ki, ermənilər və onların xarici ölkələrindəki himayədarları tərəfindən meşələrimizə divan tutulur. Nadir meşələrimiz səhralıqlara və bozqırlıqlara çevrilir. Azərbaycanın meşə ərazisi Ermənistanın meşə ərazisindən təqribən 3 dəfəyə yaxın çoxdur. Lakin buna baxmayaraq, Ermənistan Respublikası işğal altında olan meşələrimizin dağıdılıb talan edilməsi hesabına, mebel istehsalı sahəsində Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr arasında birinci yerdə gedir.

Beynəlxalq informasiya agentliklərinin verdikləri məlumatlara, xarici ölkələrin jurnalistlərinin dərc etdirdikləri yazılara əsasən deyə bilərik ki, Zəngilan rayonu ərazisindəki Bəsitçayın hövzəsində 240 hektar sahədə yetişdirilmiş, dünyada analoqu olmayan endemik Şərq çinarı meşəsi vəhşicəsinə qırılaraq mebel istehsalı üçün xarici ölkəyə satılır. Möhtəşəm çətir xüsusiyyətinə malik Araz palıdı və Laçın rayonu ərazisində geniş yayılan qırmızı palıd növləri də qırılıb-çatılmaqdadır. Bu palıd ağacı yüksək dağ palıdının qiymətli növü olmaqla yanaşı, oduncağının qırmızılığına görə şərab, konyak çəlləklərinin istehsalında geniş istifadə edilir. Həmin palıddan hazırlanmış çəlləklərdə saxlanılan konyak içkiləri yüksək keyfiyyətliliyi ilə seçilir.

Ermənilər Laçın rayonunda olan adi qoz, Kəlbəcər rayonunda yetişən ayı fındığı, həmçinin fıstıq, vələs, qaraçöhrə və s. ağacları sistemli şəkildə, heç bir meşəçilik qaydasına əməl etmədən kəsərək mebel istehsalına göndərirlər. Unutmaq olmaz ki, onların bu vəhşiliyi beynəlxalq konvensiyaların, o cümlədən, Birləşmiş Millətlər Təşkilatının Dünya İqliminin Dəyişməsi

Üzrə Çərçivə Konvensiyasının, Biomüxtəlifliyin Qorunması və Səhralaşmaya Qarşı konvensiyaların tələblərinə tam ziddir.

Deyirlər ki, hər ağac torpağa əkiləndə, onun becərilməsi təşkil ediləndə onu əkənin, becərənin də ömrü düz bir il artar. Bəli, "Hərəyə bir ağac əkək" adlı layihə Azərbaycanın hər bir bolgəsində, hər bir təhsil ocaqları və müəssələrində həvəslə yerinə yetirilir. Hər il demək olar ki, Bakı və Bakı ətrafı bölgələrdə yüzlərlə, minlərlə agac əkmə kompaniyası keçirilir. Beynəlxalq Meşə Günü ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin maraqlı və yaddaqalan keçməsi üçün kitabxananın nağıl otağında kiçik yaşlı oxucular üçün "Nağıl saatı" keçirilir. Nağıl saatında uşaqlar üçün "Meşə Kralı" adlı təmsil səhnələşdirilib göstərilir.

## MEŞƏ KRALI

*(təmsil)*



Biri vardı, biri yoxdu, bir şir vardı. Bu şir hamıdan güclü idi. Ona meşənin kralı deyirdilər. O hər səhər heyvanları yığıb

əmrlər verirdi. Vay o heyvanın halına ki, kralın əmrini yerinə yetirməyəydi.

Şir çox qəddar idi. Heyvanlara göz verib işıq vermirdi. Onun sözündən çıxanları amansız cəza gözləyirdi. Meşənin bütün sakinləri kraldan qorxurdu və heç kim onu sevmirdi.

Bir gün səhər meşə sakinləri, həmişəki kimi, talada toplaşıb kralı gözləyirdilər. Ancaq şir gəlib çıxmaq bilmirdi ki, bilmirdi. Gözləməkdən yorulan çaqqal dedi:

– Kral səhər yığıncağına gecikən deyildi. Yəqin, nə isə baş verib. Gəlin birimiz gedək, ondan bir xəbər bilək.

Meşə sakinləri belə qərara gəldilər ki, meymunu kralın yanına göndərsinlər.

Şiri öz yuvasında halsız görən meymun soruşdu:

– Ey böyük kral, sənə nə olub? Yoxsa yaralanmısan?!

- Xəstələnmişəm, – deyə şir cavab verdi. – Ayaq üstə dura bilmirəm. Dünəndən bəri dilimə bir şey dəyməyib. Mənə yemək tapın.

Meymun "baş üstə" deyib bayıra çıxdı. Xəbəri meşədəkilərə çatdırdı. Bunu eşidən tülkü dedi:

– Lap yaxşı oldu. Onu görüm həmişə yataqda qalsın. Qoy öz yuvasında acından ölsün. Sağalsa, yenə bizə zülm edəcək.

Hamı tülkü ilə razılaşdı.

Günlər keçir, heç kim şirə baş çəkmirdi. Meşə kralı günü-gündən zəifləyirdi. O öz-özünə düşünürdü: "Əlbəttə, heç kim mənə kömək etməyəcək…

Nağılın sonunda kitabxanaçı uşaqlara hər zaman yaxşılıq etməyi, heç kimi incitməməyi tapşırır və bildirir ki, əgər şir vaxtında meşədə olan heyvanlara yaxşı davransa idi, həmin heyvanlar da onun qayğısına qalardı. Biz hamımız bu nağıldan ibrət götürməlik.

Beynəlxalq Meşə Günü ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında şeir müsabiqəsinin keçirilməsi də vacibdir. Şeir müsabiqəsini orta yas qrub oxucularla keçirmək

daha məqsədəuyğundur. Oxucular Tofiq Mahmudun "Azərbaycan meşələri" adlı şeirini soyləyirlər.

Balaca dost! Gəl səni
Meşələrə aparım.
İlk dəfə görəcəyin
Guşələrə aparım.
Sevinib güləcəksən
Meşəni görən kimi,
Bir muzey biləcəksən
Meşəyə girən kimi.
Ağaca bax...Nəhəngdir
Bu meşənin cökəsi.
Sanki, nəhəng çiçəkdir,
Özü boyda kölgəsi.
Cığırla qalxacaqsan,
Qalxacaqsan yuxarı,
Hər yana baxacaqsan,
Əyərək budaqları.
Bax ağacın başına
Gəz çiçək dərə-dərə,
Çıxacaqdır qarşına
Birdən böyük bir dərə.
Keçmə, dayan... o tərəf
Uçurum, yarğan, yamac...
Yenə düzülüb səf-səf,
Ətraf ağacdır, ağac.
Hər yan gözəllik dolu,
Cənnətdir hər guşəsi.
Günəşə qalxır yolu,
Gözəldir dağ meşəsi.
Ağaclar tutur mamır,

Qayalar tutur mamır,
Yarpaqlardan yağışın
Suları yenə damır.
Sən çiçəklər görərsən,
Ağ, sarı, göy, qırmızı.
Göbələklər görərsən
Ağ, sarı, göy, qırmızı.
Marallardır, marallar
Meşənin gözəlləri.
Xalılardır, xalılar
Yüz illik xəzəlləri.
Çatmaq üçün yuxarı,
Balaca dost! Tələs sən!
Görərsən ağacları;
Palıd, fıstıq, vələs, sən.
Görsən sərin bir bulaq,
Dayanıb dincini al.
Bura, əyilib budaq,
Burdan su içir maral.
Nələr çıxar qarşına,
Ürəyin gələr dilə.
Çatarsan dağ başına,
Meşə qurtarmaz hələ.
Qalıb yaraşığında
Yenə uzanar  meşə,
Günəşin işığında
Parlayıb yanar meşə.
Balaca dost! Gəl səni
Tanış olasan deyə,
Görüb duyasan deyə
Apardım bir meşəyə.
Belə gözəl meşələr

Nə qədərdir, nə qədər!
Düşsən bu təbiətə
Səyyahlıq həvəsinə,
Gəl, aparım səni mən
Bizim doğma torpağın
Ən gözəl guşəsinə,
Batabat meşəsinə,
Talıstan meşəsinə,
Şabalıd meşəsinə
İlusu meşəsinə.
Hər meşə-bu torpağın
Yaşıl nəğməsi, səsi,
Gözəldən də gözəldir
Cəngi Leşkər meşəsi,
Qarayazı meşəsi,
Topçu, Fil-fil meşəsi.
Meşə-Azərbaycanın
Təbiətin əsəri
Oxu, öyrən indidən
Bu əsər-meşələri!

Tədbirin sonunda kiçik yaşlı uşaqlar təbiət və ağaclar haqqında tapmacalar söyləyirlər.

Uzanar, ha uzanar
Qollarınan balalar **Açması: Ağaclar**

Əyri-üyrü boy atar,
Ayağı yerə batar.
Salxım-salxım sallanar
Altında sarvan yatar **Açması: Söyüd ağacı**

**Beynəlxalq Quşlar Günü (01.04.1894)**




1 aprel dünyada təkcə gülüş günü kimi deyil, həm də Beynəlxalq quşlar günü kimi qeyd edilir. 1906-cı il aprelin 1-də quşların mühafizəsinə dair Beynəlxalq Konvensiya imzalanıb. Bu gündə məktəblilər və quş həvəskarları bağlarda və parklarda yem təknələri və yuvalar asır, quş yuvalarını yeniləmək və təzədən tikməklə quşların köçüb gəlməsinə hazırlaşırlar. Beynəlxalq statistikaya görə, dünyada 100 mindən çox quş növü var. Azərbaycanda isə 363-dən çox quş növü qeydə alınıb. Azərbaycan Ornitoloji Cəmiyyətdən verilən məlumata görə, ölkəmizdə qeydə alınan növlər 17 dəstə və 60 fəsiləyə mənsubdur. Bunların 40% -i oturaq növ olmaqla, Azərbaycanda il boyu müşahidə edilirlər, 27%-i qışlayan və 10% - dən çoxu köç vaxtı qeydə alınan növlərdir. Azərbaycan ərazisindən bütün Avrasiyada ən böyük miqrasiya yollardan biri keçir. Şərqi Avropa və Qərbi Sibirdən cənuba və Şərqi Afrikaya, Cənub - Qərbi Asiyaya və əksinə milyonlarla quş köç edir. Hər il Azərbaycan ərazisindən təqribən 20 milyon təkcə su - bataqlıq quşu keçir, istirahət və yemlənmək üçün dayanacaq kimi buradan istifadə edir. Respublikamızda yaşayan 36 növ quş Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilib. Azərbaycan ornitofaunasından 23 növ quş "Dünya Qırmızı Kitabı"na daxil edilib. Azərbaycan

Ornitoloji Cəmiyyətdən bildirilib ki, ölkəmizdə quşlar üçün əsas təhlükə onların yaşayış yerlərinin azalması, meşələrin qırılması, su sahələrinin qurudulması, əkinlərin genişləndirilməsi, quşların qanunsuz ovlanması, adalardakı yuvalama düşərgələrindən yumurtaların yığılması, narahatçılıq amilləridir (intensiv mal-qara otarılması, insanların yuvalama yerlərinə getməsi, istirahəti və s.). Bundan başqa, dənizdə neft çıxarılması və daşınması, elektirik xətlərinin çoxalması da quşlara təhlükə mənbələri sayılır. Dünya faunasinda 9 minə qədər quş növü məlumdur. Azərbaycan faunasında isə quşların 357 növü var. Onlar yer kürəsinin hər yerinə yayılmışlar. Quşlar ən çox yaşamaları üçün zəruri iqlim şəraiti və qida olan yerlərdə-meşələrdə, bağlarda, çəmənlik və bataqlıqlarda, çöllük, tundra və səhralara, dəniz və okeanların sahələrində məskən salırlar. Onların bəziləri ömrünün çox hissəsini açıq dənizdə keçirir.

Quşlarla müxtəlif sənət sahibləri-balıqçılar, ovçular, alimlər, gənc təbiətçilər, kənd və meşə təsərrüfatı işçiləri, təbiəti sevən, onun rəngarəngliyinə heyran qalan hər bir adam maraqlanır.

Quşlar heyvanlar aləminin ali qruplarından biridir. Onların insanların həyatında, xalq təsərrüfatında, həm də elmi cəhətdən böyük əhəmiyyəti var. Onlar insanlara öz gözəl görkəmləri, “danışıqları” oxumaları, “oynamaqları” ilə də zovq verirlər. Ta qədimdən bəri insanlar təbiətin onlara bəxş etdiyi quşların adından istifadə etmiş, qızlarını, oğlanlarını onlara oxşatmış, övladlarını quş adları ilə adlandırmışlar: Bülbül, Kəklik, Turac, Qumru, Göyərçin, Sona, Şahin, Durna, Laçın və s. Quşların içində “sanitarlar” da var. Onlardan ağacdələni, sərçəni, sağsağanı, qarğanı göstərmək olar. Ağacdələnlər ağacları müalicə edir, yəni, onlara ziyan vuran cücüləri qurdları yeyir, onları zədələməkdən qoruyurlar. Sərçələr də zərərverən cücülərin artmasına mane olur və kənd təsərrüfatına böyük xeyir verirlər.

Bəzən görürsən ki, camışın, kəlin, öküzün və s. heyvanların otladığı və göldə uzandığı yerdə üstlərinə sağsağan, qarğa və başqa quşlar qonur. Bəs nə üçün heyvanlar bu quşları başı və quyruğu ilə qovmur, əksinə, daha da xoşhallanırlar. Ona görə ki, həmin quşlar onların dərilərinə yapışan cücünü, qurdu yeməklə dərilərini təmizləyirlər. Quzğunlar, qartallar və başqa quşlar da meşənin sanitarlarıdır. Onlar leş, cəmdək yeməklə bir növ təbiəti təmizləyirlər. Sərçəkimilər dəstəsindən sayılan alacəhrələr, arıquşular, bayquşların bəzi növləri də kənd təsərrüfatına zərərverən siçanabənzər gəmiriciləri, xırda sürünənləri, cücüləri məhv etdiyinə görə xeyirli quşlardır. Şahin, qızılquş, berkut da ov etmək üçün faydalıdır. Ovçular bu quşlardan ov vaxtı istifadə edərkən ayağına uzun bir ip bağlayır, başını papaqla örtür və onun dalinca buraxırlar. Bülbülləri, tutuquşuları evlərdə qəfəsdə saxlayırlar. Onların cəh-cəh vurması, "danışması" adama zövq verir. Elə quşlar var ki, onlara "güləyən" deyirlər. Məsələn, dənizin üzərində uçaraq özlərinə yem axtaran qağayılar, bəzən də qanad çalaraq yorulub sakit dənizin üzərinə qonur, yaxud da sahildə cərgə ilə düzülərək "qəhqəhə" çəkirlər. Bu vaxt onların səsi gülüşü xatırladır. Elə quşlar da var ki, onlara sirkdə təlim keçir və oynamaq öyrədirlər. Məsələn, dəvəquşulara, göyərçinlərə təlim keçmək daha asandır. Minlərlə tamaşaçı tutuquşuların, ev quşlarının, və indi adını çəkdiyimiz quşların "oyunundan" böyük zövq alır. Təbiətin gözəlliklərindən biri sayılan quşları qorumaq lazımdır. Onları görəndə vurmaq, yumurtasını sındırmaq, yuvalarını dağıtmaq olmaz. Elə quşlar var ki, sayı azaldığına görə onların adını "Qırmizi kitab"a daxil etmişlər.

"Beynəlxalq Quşlar günü" ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərdən biri də sərgidir. Sərgidə dünya

faunasında olan quşların fotoları və əl işləri nümayiş olunur. Əvvəlcə kitabxanaçı sərgi qarşısında bu tarixin yaranması haqqında oxuculara məlumat verir. Sərgiyə baxış keçiriləndən sonra fəal oxuculara quş yuvalarının hazırlanması, müxtəlif rəngli kağızlardan quş formalarının düzəldilməsi tapşırığı verilir. Oxucular da bu işin öhdəsindən məharətlə gəlirlər. Onlar hazırladıqları quş yuvalarını yaxınlıqdakı parklarda, istirahət yerlərində olan ağaclardan asmağa başlayırlar. Tədbirin sonunda uşaqların düzəltdikləri quş formaları və ağ göyərçinlər havaya uçurulur.

Beynəlxalq Quşlar günü ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanasında “Planetin qəribə quşları” adlı kitabın təqdimatını keçirmək olar.




Kitab Qanun nəşriyyatı tərəfindən 2013-cü ildə nəşr olunmuşdur. Kitab əsasən məktəb yaşlı kiçik uşaqlar üçün nəzərdə tutulmuşdur. Kitabın içərisində “Hansı quş ən böyükdür?”, “Hansı quş daha sürətlə uçur?”, “Hansı quş ən kiçikdir?”, “Hansı quşların ayaqlarında barmaq var?” və s. bu kimi suallara cavab tapmaq olar. Kitabda bütöv növ quşların şəkilləri və onlar haqqında məlumatlar verilmişdir. Tədbirin sonunda oxucular **“Səhər nəfəsli quşlar”** adlı əl işləri ilə tanış olurlar.













Sərgiyə baxışdan sonra kiçik yaşlı uşaqlar Hüseyn Arifin "Quşlar" şeirini söyləyirlər.

Yenə qonub budağa,
Ötür qabaq-qabağa.
Şirin nəfəsli quşlar,
Sübhün gözü durulur.
Ağacda toy qurulur
Oxuyur səsli quşlar,
Biri göy, biri sarı,
Oyadır yatanları
Səhər nəfəsli quşlar.

Həmçinin "Beynəlxalq Quşlar günü" ilə bağlı dünya faunasında olan müxtəlif cür quşlar və onların yaşayış tərzləri haqqında oxuculara geniş məlumatlar verilir.

**Flaminqo:**



Qəribə dimdikli, uzun ayaqlı bu quş flaminqodur. Təəccüblənməyin, axı bu quş yalnız ağ rəngdə olmur, çəhrayı rəngləri də var. Çəhrayı rəngi isə onun yediyi xərçənglərdəndir. Xərçəngin tərkibində olan karotinoid onun rənginə çəhrayılıq

verir. Bu maddə az olduqda o, ag rəngdə qalır. Bu quşların hər bir şəraitə uyğunlaşması onların dünyanın çox yerlərində yayılmasına səbəb olub. 5 növü olan flaminqonun ən kiçik və nadir növləri –And və Ceyms flaminqoları-And dağlarında 3500-5000 m hündürlükdə yaşayırlar. Plankton, balıq, xərçəng, molyuska və kiçik su heyvanları ilə qidalanan flaminqoların Xəzərdə qışlayanları da var. Bu quşların ən maraqlı xüsusiyyəti isə odur ki, onların körpələrinə xüsusi tərbiyəçi quşlar qulluq göstərir.

**Ovçu qartal:**



Qartal çöx dəqiq və bacarıqlı ovçudur. Onun gözü insan gözündən dəfələrlə güclü görmə qabiliyyətinə malikdir. Göy üzündə kiçik nöqtə kimi görünən qartal yerdə sıçanın hərəkətini seçə bilir. Qartalın hənirini hiss edən tısbağa bir andaca qınına çəkilir. Elə bilirsiniz canını bununla qurtara bilir? Ay qurtardı ha! Qartal onu caynağına alıb göyün üzünə qaldırır və oradan sərt qayaların üzərinə buraxır. Yazıq tısbağanın nə günə qaldığını təsəvvür etmək, məncə, çox da çətin deyil. Bundan sonra qartal yerə enir və onun parçalanmış çanağının altından ətləri qoparıb yeməyə başlayır.

Tropik meşələrdə meymunların ən çox ehtiyat etdikləri ovçu qartallardır. Meşənin açıq yerində oynaşan meymunları görən qartal ildırım kimi şığıyaraq caynağına keçirdiyi meymunu bir neçə dimdik zərbəsi ilə öldürür və götürüb aparır.

## Göyərçinlər



Göyərçinlərin mülayim və tropik qurşaqda 255 növü məlumdur. Azərbaycanda isə dörd növü yaşayır: çöl göyərçini, meşə göyərçini, alabaxta, qumru. Onların rəngi müxtəlifdir. Qumru köçəri, qalanı isə oturaqdır. Göyərçin ildə 2, bəzən 4-5 dəfə yumurtlayır. Ağac koğuşunda, kol və uçurumlarda düzəltdiyi yuvaya 2 ağ yumurta qoyur. Toxum və meyvə ilə qidalanır. Ev göyərçininin əcdadı olan çöl göyərçini daha geniş yayılmışdır. Üç qrupa bölünür: poçt göyərçini, dekorativ göyərçin, ətlik göyərçin. Poçt göyərçininin əhəmiyyəti azdır. Yalnız idman işlərində istifadə olunur. Dekorativ göyərçin lələklərinin gözəlliyinə, ətlik göyərçin isə ətinə görə yetişdirilir. Çəkisi 600-900 qramdır.

**Göyərçinlərin növləri: Alabaxta, Meşə göyərçini, Çöl göyərçini, Qumru.**

## Səyahətçi Albatros



Albatros əsl dəniz səyahətçisidir. Qanadlarının uzunluğu 3 metrdən çox olan bu quş həyatının xeyli hissəsini okeanda keçirir. O, yalnız ildə üç dəfə bala çıxarmaq üçün insan yaşamayan tənha adaya çıxır. Quruda albatros çox çətinliklə hərəkət edir, demək olar ki, sürünür. Bu quş hətta sakit dəniz sularının üzərində də özünü narahat hiss edir. Axı belə halda o uçmaqdan məhrumdur. Lakin külək dəniz üzərində dalğa yaradan kimi böyük qanadlar sanki daimi uçuşa açılır. Albatros əla uçur və məharətlə küləyin hər bir istiqamətini tuta bilir.

## Torağaylar:



Azərbaycanda torağayların 10 növü (dünyada 70-dək növü var) bəzən oturaq, bəzən də köçəri halda yaşayır. Qızılğac, Türyançay, Zaqatala qoruqlarında çöl torağayı, tarla torağayı, kəkilli torağay, kiçik torağay və s. olur.
Torağayların bəziləri 2400 metrədək yüksəklikdə qayalı-çınqıllı subalp və alp qurşaqlarında məskən salırlar.

Torağay boyca balacadır, tünd-boz rəngi və çilləri var. Torağay yerə endikdə bu rəng ona düşmənlərdən qorunmaqda kömək edir.  Torağay yerdə yaşayır, burada özünə qida tapır və yuva tikir. Yuvasının içərisinə quru ot döşəyir. O, belə bir şəraitə çox gözəl uyğunlaşir: uzun və düz pəncələri sayəsində torağay otların üstündə rahatca gəzir.

## Meşə həkimi-Ağacdələn



Yəqin ki, ağacdələnlərin "meşə həkimi" olduğunu hamınız eşitmisiniz. Bəs necə? Axı o, ağacları zərərli həşəratlardan, cücülərdən təmizləyir, onları xəstəliklərdən xilas edir, vaxtından əvvəl qurumadan qoruyur. Bəs bu quş haqqında daha nə demək olar? Ağacdələn dırmananlar sinfinə aid olan meşə quşudur. Onun uzun, düz, iskənəyəbənzər dimdiyi, nazik və xeyli uzağa hərəkət edə bilən dili var. Dilin belə hərəkətli olmasina səbəb

dilaltı sümüyün çox inkişaf etməsidir. Ağacdələn əla dırmanma qabiliyyətinə malikdir. Lakin yerdə yalnız yöndəmsiz şəkildə tullanmaqla hərəkət edə bilir. Qanadlarını örtən lələklər qısadır. Ağacdələn, əsasən, həşəratlarla qidalanır. Bəzi növləri isə toxum və giləmeyvə də yeyir. Bu quş öz yuvasını ağacların gövdəsində qurur. Çoxalma zamanı dişi, yuvaya 3-8 ədəd ağ, şəffaf yumurta qoyur. Onlar üçün döşəkcə rolunu isə tikanlar oynayır. Yumurtaların üzərində dişi və erkək növbə ilə otururlar. Adi vaxtlarda isə ağacdələn təkliyi sevir. Bu quşun 350 növü məlumdur. Onlar Avstraliya və Madaqaskardan savayı, demək olar ki, dünyanın hər yerində yaşayırlar.

## Leylək




Yəqin ki, hamınız onun haqqında nağıl da eşitmisiniz, mahnı da, şeir də. Bu böyük ağ quş kəndlərin yaxınlığında çəmənlikdə gəzişir, bəzən yuvasını lap kənd evlərinin damında qurur. Çox faydalı quşdur. Bu quşa hacıleylək də deyirlər. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda müqəddəs quş hesab edilir. Leyləklər insanlarla çoxdan dostlaşıblar, onlardan qorxmurlar. İnsanlar isə bu dostluğu yüksək qiymətləndirir və səbirsizliklə gözləyirlər ki, leylək onların da damında yuva

qursun. Axı belə bir inam var ki, bu gözəl quşlar ev sahiblərinə xoşbəxtlik gətirir. Əgər leylək bir evin damında yuva qurubsa, hər bahar öz köhnə yuvasına qayıdacaq. Yenə də yuvada uzunqıç leylək balaları bütün günü öz ata- analarının ovdan qayıtmasını gözləyəcəklər. Ata-ana isə öz balalarına yem daşıyacaq. Axı balalar hələ uça bilmirlər, onlar valideynlərinin gətirdikləri qurbağaları, siçanları, kərtənkələri və başqa cücüləri yeyirlər. Aprelin əvvəlində leyləklər üç-beş ağ yumurta qoyur. Yumurtadan çıxan balalar payıza qədər böyüyüb qüvvətli quşlara çevriləcək və isti yerlərə uçub gedəcəklər. İnsanlar isə yenə də hər bahar öz vəfalı dostlarını gözləyəcəklər.
Leyləklər sakit və ehtiyatla tərpənən quşlardır. Onlar bir-biri ilə dimdiklərini şaqqıldatmaqla "danışırlar". Ag leyləklərin yaxın qohumları olan qara leyləklər yalnız sıx meşələrdə yaşayırlar. Sayları azdır. Qara leyləklər mühafizə edilir. Onun adı Azərbaycanın "Qırmizi kitab"ına salınmışdır.

## Durnalar qatar-qatar...



Durnalar köç edərkən V hərfi şəkilində qatarlanırlar. Elm adamları bunun səbəblərini araşdırmış və bəzi maraqlı nəticələrə

gəlmişlər. Məlum olmuşdur ki, dəstənin başında gedən durna uçarkən hava müqaviməti ilə çox üzləşir. Bu səbəbdən başqalarına nisbətən daha tez yorulur. Yorulan quş lap arxaya keçir və bu dəfə qatarın başına cərgədə ondan sonrakı durna gəlir. Bu qayda ilə liderlik növbə ilə bütün durnalara ötürülür. Beləcə, hər bir durna qatarın bütün nöqtələrində yer almış olur. Bundan başqa, hər quş qanad çalarkən özündən sonrakı quş üçün onu qaldıran hava axını yaradır. V şəklində uçan durna qatarı yaranmış hava axınının hesabına güclərini 70%-ni mühafizə edirlər. Başqa sözlə, təkbaşına gedə biləcəkləri ən uzaq yolu dəstə halında uçarkən iki dəfə artıra bilirlər.

Durnalar haqqında bir çox mahnı və şeirlər yazılmışdır ki, bunlardan ən məşhuru Molla Pənah Vaqifin "Durnalar" adlı şeiridir. Bu şeirə C.Cahangirov musiqi də bəstələmişdir. Mahnı Azərbaycanın ən məşhur müğənnilərinin ifasında səslənmişdir. (Şövkət Ələkbərova, Akif İslamzadə, Gülüstan Əliyeva)

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz,
Bir xəbər versəniz bizə, durnalar!

Sizə müştaq durur Bağdad elləri,
Gözləyə-gözləyə qalıb yolları,
Asta qanad çalın, qafil telləri,
Heyifdir salarsız düzə, durnalar!

Xeyli vaxtdır yarın fərağındayam,
Pərvanə tək hüsnün çırağındayam,
Bir ala gözlünün sorağındayam,
Görünürmü görün gözə, durnalar!

Mən sevmişəm ala gözün sürməsin,
Bədnəzər kəsibən ziyan verməsin,
Sağın gəzin laçın gözü görməsin,
Qorxuram səfnizi poza, durnalar!

Nazənin-nazənin edərsiz avaz,
Ruhlar tazələnir olur sərəfraz,
Vaqifin də könlü çox edər pərvaz,
Hərdəm sizin ilə gəzə, durnalar!

**Ümumdünya ətraf mühitin mühafizəsi günü (05.06.1972)**




XIX əsrin sonlarından başlayan elmi–texniki tərəqqi, sənayenin sürətli inkişafı nəticəsində ətraf mühitə edilən təsirlər XX əsrin ortalarında öz mənfi nəticələrini büruzə verməyə başladı. Artıq insanlar təbiətə olan münasibətlərini dəyişməyəcəkləri, onun ehtiyatlarından səmərəsiz istifadəyə son qoymayacaqları təqdirdə bu prosesin onların özlərinə qarşı çevriləcəyini və arzuolunmaz nəticələrə gətirib çıxaracağını anladılar. Bu problemin gələcəkdə qlobal kataklizmlərə səbəb olacağını başa düşən alimlər, ekoloqlar öz etiraz səslərini ucaltmağa, həyəcan təbili çalmağa başladılar. Problemin ciddiliyini dərk edən beynəlxalq təşkilatlar,

tərəqqipərvər dünya ictimaiyyəti məsələni daim diqqət mərkəzində saxlamağa çalışırdı.

5 iyun 1972–ci il tarixdə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının İsveçin paytaxtı Stokholm şəhərində keçirilən iclasında ətraf mühitin mühafizəsi məsələsi diqqət mərkəzində olmuşdur. Problemin kəskinliyini, əhali arasında ekoloji şüurun yüksəldilməsinin, ətraf mühitin mühafizəsi problemlərinə diqqətin yönəldilməsinin vacibliyini nəzərə alan iştirakçılar 5 iyunun “Ümumdünya ətraf mühit günü” kimi qeyd olunmasına qərar verdi və növbəti ildən həmin gün bütün dünyada təntənəli şəkildə qeyd olunmağa başlandı.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər il 5 iyun “Ümumdünya ətraf mühit günü” ərəfəsində ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədi ilə müxtəlif tədbirlər həyata keçirir. Ümumdünya ətraf mühitin mühafizəsi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında “Təmiz Dünya-Sağlam Gələcək” adlı sərgi keçirilir. Sərgini keçirməkdə məqsəd gənclər arasında ekoloji mədəniyyətin təbliği, ətraf mühitə daha diqqətli və qayğıkeş münasibətin formalaşdırılması, eyni zamanda ekoloji problemlərin həllinə




yönələn fəaliyyətə gənclərin cəlb olunmasıdır. Sərgidə Ətraf mühitin mühafizəsi haqqında fondumuzda yer alan kitablar, bukletlər, dövrü mətbuatda nəşr olunan məqalələrin nümayişi nəzərdə tutulur. Sərgiyə baxışdan sonra kitabxanaçı sərgidə nümayiş olunan “Ətraf mühit haqqında infoqrafika” adlı kitab haqqında oxuculara dolgun məlumat verir. Kitab

ilk dəfə Böyük Britanityanın “Capstone Global Library” nəşriyyatı tərəfindən “Raintree” əmtəə nişanı altında “Environment Infographics” adı ilə nəşr olunub. Su sərfi, elektrik energisinə qənaət, təkrar istifadə və tullantılar barədə infoqrafikalarla zəngin kitab “Capstone Global Library” nəşriyyatının orijinalı əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb. Kitabda Tullantı nədir?, Su, Təkrar istifadə, Çirklənmə, Energiyə qənaət, Təbiət təhlükədədir və s. bu kimi bölümlərə cavab tapa bilərsiniz. Bir sözlə bu kitabı oxumaqla ətraf mühit baərədə daha çox və maraqlı infoqrafikalarla tanış ola biərsiniz.

## “Ümumdünya Qarpız Günü” (03. 08)



Bu gün dünyada Qarpız günü kimi qeyd edilir. Ən böyük giləmeyvə olan qarpızı çox sevən amerikalılar bu günü tarixə salıblar. Cəmi 6%-ni şəkər təşkil edən bu giləmeyvə hər kəsə faydalıdır, eləcə də diabetdən əziyyət çəkənlərə də. Qarpızın tərkibinin 90%-i xiyarda olduğu kimi sudan ibarətdir. Bu isə o deməkdir ki, istədiyiniz qədər yeyə bilərsiniz... Dünyada qarpız istehsalına görə lider ölkə Çin olsa da, Yaponiya cürbəcür qarpız çeşidlərinə görə (hətta burada sarı, qara, dördkünc qarpızlar da yetişdirilir) birinci yeri tutur. Ən ağır qarpıza isə Amerikada təsadüf edilib, onun çəkisi 122 kq. idi. Elə isə siz də bu günü

qeyd edin, soyuducunuzda olan qarpızı dilimləyin və doyunca dadın!

Hər il "Qarpız Günü" ilə bağlı çoxlu tədbirlər keçirilir. Belə tədbirlərin çoxu Florida və Texas ştatlarında keçirilir. Bu tədbirlərin biridə "Qarpız Festivalı" dır. Hər festival qarpızın müxtəlif cəhətlərini üstün tutur. Məsələn, "North Carolina Watermelon Festival"da hər il "Ən dadlı və şirin qarpız" ugrunda yarış keçirilir. "Missis-Sippi Watermelon Fest"də isə "Ən böyük qarpız" axtarılır.

Deyilənə görə qarpızın vətəni Afrika sayılır. Tarixi baxımdan bu məlumatın nə qədər dəqiq olmasını sübut etmək bizim işimiz olmasa da, bunu əminliklə deyə bilərik ki, barlı-bərəkətli muğan torpağı olan Sabirabad yüz illərdir ki, "Qarpızın Vətəni" statusunu qazanıb və bu estafeti uğurla davam etdirməkdədir. Bu gün Sabirabadda yetişdirilən qarpızın şan-şöhrəti və sorağı ölkəmizin hüdudlarından çox-çox uzaqlarda yayılıb. Bu bərəkətli nemətin adını əbədiləşdirmək üçün hər il Sabirabadda "Qarpız festivalı", pəhləvanların qarpız yarışı keçirilir. Hər il Sabirabadda keçirilən festival demək olar ki, ənənə şəklini alib. Festivalda qarpız üzərində oyma sənətindən nümunələr, qarpızdan hazırlanmış 20 növ kulinariya məhsulu (qarpız mürəbbəsi, kompotu, turşusu, şərbəti, tort, cem, keks, dondurma, qarpız kababı) sərgilənib.

Qarpız günü ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Beləki, kitabxanamızda Qarpız günü ilə bağlı rəsm sərgisi keçirilir. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər.

Qarpız günü ilə bağlı tədbirlərin geniş və maraqlı olması üçün nağıl otağında kiçik yaşlı oxucular üçün "Nağıl saatı"nın keçirilməsi nəzərdə tutulur. Kitabxanaçı Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin "Meyvələrin söhbəti" adlı əsərindən bir parçanı uşaqlar üçün oxuyur. Nağıl otağı tədbirə uyğun dekorasiya və üzərində müxtəlif cür meyvə olan ağaclarla bəzədilir.

Bahar fəsli idi. Çöllər, çəmənlər yaşıl don geyinmişdi. Qış yuxusundan ayılmış güllər, çiçəklər min rəngə çalırdı. Lalə elə qızarmışdı ki, elə bil bağrına dağ çəkmişdilər. Nərgizgülü bağa girən kimi ətrafına baxıb özünü itirdi. Bənövşə aciz-aciz boynunu əyib durmuşdu. Qönçələrin açıldığını görən şeyda bülbül sevinir, qızılgülə baxıb ah-naləyə başlayırdı. Çəmənlərdə yasəmənlərin xöş rəngi, ətri, gözəlliyi qəlbə fərəh verirdi. Təbiətin belə gözəl çağında, meyvələrin dilini bilən bir nəfər arif adam bağa gəzməyə gəldi. O, bağa girən kimi meyvələrin fəxr edib öyündüklərini gördü. Fıstıq, İydə, Şabalıd, Fındıq, Tut, Albalı, Əncir, Zoğal, Qoz, Lumu sözə başlayıb hərəsi özündən bir əfsanə danışdı.

Şaftalı deyirdi padşaham. Fıstıq deyirdi ki, ulduzlar içində Ayam. Qoz deyirdi mən şaham. Fındıq deyirdi şahənşaham. Lumu deyirdi mən bu bağın sevimlisiyəm. Şabalıd deyirdi pəhləvanam. Əncir deyirdi dünyada məşhuram. İnnab deyirdi gözələm. Zoğal deyirdi...Albalı da özünü tərifə başladı, Tut da tuti kimi dil-dil ötdü.

Dincəlib ləzzət almaq üçün bağa səyahətə gəlmiş arif adam bu səs-küyü eşidib orada qalmaq istəmədi, evinə qayıdarkən yolu bostana düşdü. O, bostanı elə bir vəziyyətdə gördü ki, az qaldı bağrı çatlasın. Burada Xiyar özünü tərifləyir, təcrübə və bacarığından danışıb deyirdi:

-Mən ürək yanğısının dərmanıyam, məni yeyənlərin ürəyini sərinlədirəm.

Bunu eşidən Gərmək üzünü Xiyara tutub dedi:

-Ay, zalim, bu tərif nədir eləyirsən? Sənin bircə quru addan başqa nəyin var? Camış əti səndən dadlıdır. Tərifə mən layiqəm ki, həm xəstələrə şəfa, həm də ürəklərə şəfa verirəm!

Gərməyin tərifini eşidən Qarpz elə nərə çəkdi ki, dəniz kimi cuşə gəldi. O dedi:

-Məgər bu xasiyyət məndə yoxdur? Mən dərdlərə şəfa, gözlərə işıq verirəm. Qızdırma və başağrısının dərmanıyam. Rəngim qırmizı, suyum saf və şirindir.
Bunları eşidən Qovun hiddətləndi. Qarpıza verdiyi vəzirliyi, Gərməyə verdiyi vəkillik mənsəbini əlindən aldı. Xiyarı mülazim, Şamamanı xadim rütbəsindən qovdu və bostançıya əmr etdi ki, bunların cəzasini versin. Xiyarın qabığını soydurub, ixtiyarını əlindən aldı. Gərməyə bir neçə yerdən yara vurub parçalatdı. Qarpızı ortadan böldü, Şamamanı bir kənara atıb dedi:
-Bu bostanda sizin şahınız mənəm! Ətrimin, dadımın tayı-bərabəri yoxdur!
Xülasə, Qovun özünü o qədər təriflədi ki. axırda özü-özünə hirslənib başını yardı. Bunu görən səyyah bostanda qalmaq istəmədi. Bu dünyanın işlərinə heyran edib, lovğalananlara gülüb yoluna düzəldi.

**“Dünyanın ən şirin və dadlı qarpızı”** adlı sərgidə qarpız üzərində müxtəlif oyma işlərinin nümunəsini sizlər üçün təqdim edirik.

Sərgi qarşısında oxucular qarpız haqqında tapmacalar söyləyirlər.

Yastı tağım var,

Al otağım var.

Göy paltarımda

Boz qurşağım var.

**Açması: Qarpız**

**“Dünyanın ən şirin və dadlı Qarpızı”**


















**Ümumdünya balina və delfinlər günü (23.07.1986)**





1986-cı ildə Beynəlxalq Balinaovlama Komissiyası (International Whaling Comission: IWC) bu heyvanların 200 illik amansız şəkildə qırılmasından sonra balina sənayesinə qadağa qoymuşdur. Bu qadağa indi də qüvvədədir və bütün dünyada balinaların ovlanması, o cümlədən balina ətinin ticarəti qadağan olunmuşdur. Lakin balina sənayesi bu heyvanlar üçün yeganə təhlükə deyil. Balinaların, delfinlərin və digər dəniz məməlilərinin yox olmasının daha bir səbəbi – onların delfi narilər, okeanariumlar və sirklər üçün tutulmasıdır. Buna görə də bu gün yalnız balinaların deyil, bütün dəniz məməlilərinin qorunması günü hesab olunur. Beynəlxalq Delfin ovlama Komissiyası balinaların ovlanmasına qadağa tətbiq etdikdən sonra Yaponiya sanksiyalardan çəkinərək bu sazişə qoşulmağa məcbur olmuşdur. Lakin balinaların elmi məqsədlərlə ovlanması hüququ vardır. 2007-ci ildə balinaların ovlanma kvotası 950 balina təşkil edirdi. Həmin kvotaya görə, hər il Yaponiya ancaq üçə qədər balina ovlayırdı. Lakin həmin il yapon “Nissin-maru”

balina ovlama donanmasında yanğın baş verir və "tədqiqat" üçün 508 heyvan öldürülür. Elmi işlər başa çatdıqdan sonra heyvanların əti əsasən yapon restoranlarında istifadə olunur. Beynəlxalq Balinaovlama Komissiyasının qadağası 19 fevralda qüvvəyə minmişdir.

Hər il fevralın 19-da daha bir bayram – Beynəlxalq Balinalar Günü qeyd olunur. Bəzən müxtəlif ölkələrin ekoloji təşkilatları bu günü birlikdə məhvolma təhlükəsi qarşısında qalan hər bir növ dəniz məməlisinin müdafiəsinə həsr edirlər.

Delfinlər məməli dəniz heyvanlarıdır. Balıqla qidalanırlar. Delfinlər asanlıqla təlim edilirlər. Sirk və parklar üçün delfin qiymətli heyvandır. Delfinlər şən və məzəli səslər çıxararaq uşaqları əyləndirir, onların sevimlisinə çevrilirlər. 1960-cı ildən bəri delfinləri Amerika ordusuna daxil edirlər. Burada delfinlərdən ibarət sualtı komanda təşkil olunur, delfinlərin bəziləri sualtı müdafiə, bəziləri də bomba zərərsizləşdirici kimi yetişdirilir.

Delfinlərin eşitmə qabiliyyəti çox yaxşı inkişaf etmişdir. Delfinlər həm də çox şəndirlər. Beş-on delfin yığışaraq birlikdə üzür və dalğalar qoynunda sıçrayaraq şənlik edirlər. Yüzlərlə kilometr məsafəni gəmilərin dövrəsində üzür, gəmi ilə yarışır və ən sürətli texnikanı belə ötürlər.

## Dəniz nəhəngləri  Balinalar

Dünyanın ən böyük heyvanı balinadır. Mavi balina isə onların ən böyüyüdür. Kökü kəsilmiş dinozavrları belə keçə bilən mavi balinanın boyu 30 metrə, agırlığı isə 130 tona çatır. Doğularkən balina balalarının boyu 6 metrə qədər olur.

Balinalar balıq deyillər. Çünki onlar bir çox balıqlar kimi balalarını kürü tökməklə deyil, doğaraq dünyaya gətirir və əmizdirirlər. Balıqlarda olan qəlsəmələr balinalarda yoxdur. Onlar ağciyərləri ilə nəfəs alır və bundan ötrü beş-on dəqiqədən bir suyun üzərinə çıxmaq məcburiyyətində qalırlar. Hər çıxışdada başlarının üstündəki nəfəs aldığı dəlikdən bayıra su püskürürlər. Balinalar iki yarımdəstəyə bölünürlər: dişli və dişsiz (bığlı). Ümumiyyətlə, balinaların 38 cinsə mənsub 83 növü var. Balinaların çoxu Şimal və Cənub yarımkürələrinin sularında miqrasiya edir; qışda çoxalmaq üçün isti dənizlərə, yayda piy bağlamaqdan ötrü soyuq sulara üzürlər. Dişi balinalar, əsasən, balıq və molyuskları diri-diri udmaqla, dişsiz balinalar isə ancaq kiçik dəniz canlıları ilə qidalanırlar. Balinalarda dad, lamisə və dəri hissləri inkişaf etsə də, gözləri kiçikdir və qoxu bilmirlər. Onlar müxtəlif səslər çixararaq uzaq məsafələrdən danışırlarmış kimi xəbərləşir və okeanlarda ailə üzvlərinin hamısı bir araya gələrək dolaşırlar. Balinaları ətinə və yağına görə ovlayırlar. Müasir balina gəmiləri övlanan heyvanların ətini və yağını ayıra bilən işlək bir üzən fabrik şəklində qurulmuşdur. Təyyarə, vertalyot və radar qurğuları ilə də balina ovçuluğu edənlər vardır. 200-300 il yaşaya bilən balinaların bəzi növlərinin, çox ovlandıqları üçün kökləri kəsilmək təhlükəsi qarşısındadır.

Balinaların səbəbi hələlik elmə məlum olmayan qəribəlikləri var. Onlar bəzən sürülər halinda və anlaşılmaz şəkildə sahilə atılaraq özlərini öldürürlər.

Balinakimilər dəstəsinə 80 növ daxildir. Onların hamısı suda yaşayır və heç vaxt quruya çıxmır. Balinanın bədəni torpedo formalıdır, başı iridir, boynu isə uzundur. Dərisi çılpaq və qalındır. Quyruğu üzgəcə oxşayır və çox güclüdür. Agciyərləri elastikdir. Balina 2 ilə bir bala verir. Balinakimilərin 15 növü "Qırmızı kitab"a düşüb-Atlantika delfini, boz delfin, cənub balina finval, seyval, komanda narva, Qrenladiya balinası, butulkaburun agsifət delfin, Qara dəniz delfini.

Delfinlər haqqında iki ovçunun söhbəti:
-Bir gün Afrikada mən 500 m-lik məsafədən fili vurub öldürdüm.
-Bu nədi ki?! Bu yaxinlarda mən Şimal dənizdə nəhəng bir ağ ayını əllərimlə boğub öldürmüşdüm.
-Hə, dəniz demişkən,
-Ölü dəniz haqda eşitmisən?
-Əlbəttə ki!
-Hə, Bax, onu qardaşımla mən öldürmüşəm.

## Beynəlxalq Yarasalar Gecəsi (20-21.09)



2012-ci il Beynəlxalq Yarasalar İli elan edilib. Avqustun sonundan sentyabr ayı boyunca bütün Avropada bu maraqlı heyvanların ən çox yayıldıqları yerlərdə "Avropa yarasalar gecəsi" keçirilir. Bu il Avropa yarasalar gecəsi beynəlxalq statusa malik olub. Belə ki, bu gün eyni zamanda dünyanın 30 ölkəsində keçirilir. Bu günün əsas məqsədi ətraf mühitin mühafizəsi və ictimaiyyətin diqqətini bu yeganə uçan məməlilərin mühafizəsi probleminə yönəldilməsidir.
F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Beynəlxalq Yarasalar gecəsi ilə əlaqədar bir çox tədbirlər keçirmək olar. Nağıl otağında kiçik yaşlı uşaqlarla kitabxanaçı rəngli kağızlardan Yarasalar düzəldib sərgi hazırlayır. Sərgi qarşısında isə kitabxanaçı Yarasalar haqqında bir neçə tapmaca söyləyir. Onların nümunəsini sizlər üçün veririk:

Gündüz yatar yuvada,
Gecə gəzər obada.
**Açması: Yarasa**

Halalar, ha halalar,
Dağda ceyran balalar,
Quşlardan hansı quşdur,
Yumurtasız balalar?
**Açması: Yarasa**

Çıxdım qız qalasına,
Ox atdım yuvasına,
Quşlardan hansı quşdur,
Süd verir balasına
**Açması: Yarasa**

Göylə uçar, görünməz,
Yerə düşər sürünməz,
Doğar-törər, əri yox,
Qanadının pəri yox.
**Açması: Yarasa**

Sıçan görsə dişin açar,
Quş görəndə qanad açar

**Açması: Yarasa**

## Filləri Ümumdünya Müdafiə Günü (22. 09)



Sentyabrın 22-i dünyanın bir çox ölkələrində Filləri Ümumdünya Müdafiə Günü kimi qeyd edilir. Bu gün təbiəti mühafizə təşkilatlarının, ekoloqların və fillərin sayının azalmasına görə narahatlıq keçirən insanların təşəbbüsü ilə təsis edilib. Fillər fəsiləsinin xortumlular dəstəsinə aid olan bu nəhəng heyvanlar planetimizdə yaşayan ən iri məməlilərdir. Ağıllı və çox mütəşəkkil fillər əvvəllər qurunun böyük hissəsində məskunlaşan qədim xortumlular qrupunun bizim

günlərə gəlib çıxan yeganə nümayəndələridir. Hazırda təbiətdə fillərə tropik meşələrdə, Cənub-Şərqi Asiya və Afrika savannalarında təsadüf edilir. Fillər lap qədimdən dünyanın bir çox xalqları tərəfindən sevilən heyvanlardır. Bir çox mədəniyyətlərdə onlar hakimiyyətin, hökmdarların əzəmətinin, müdrikliyin, təmkinin, mehribanlıq və firavanlığın rəmzidir. Buddizmə etiqad edən ölkələrdə fillər uzun ömrün, ehtiyatlı və ağıllı olmağın rəmzi sayılır. Bildiyimiz kimi, fillər qədim dövrlərdə hərbi əməliyyatlarda və döyüşlərdə iştirak edib, tikinti işlərinə və yüklərin daşınmasına kömək edib, kəndlilərin əvəzolunmaz köməkçiləri olub. Hətta bizim günlərdə də iqtisadiyyatının əsas sahələrindən birini turizm təşkil edən bir sıra ölkələrin rifahı turistləri cəlb edən fillərdən birbaşa asılıdır. Tailandda və Hindistanda fillər bütün bayramlarda iştirak edir, şənliklərə bənzərsiz kolorit bəxş edir, polo oynayır, yarışır, rəsm çəkir və s. Filləri Müdafiə Gününün əsas məqsədi Afrika və Hindistan fillərinin populyasiyasının müdafiə olunması və qorunub saxlanılması barədə informasiya yaymaq, ictimaiyyətin dıqqətini bu heyvanların qanunsuz məhv edilməsi və qapalı şəraitdə saxlanılması probleminə cəlb etməkdir.

Fillər haqqında bilmədiklərimiz?

Fillər sürü halında yaşayırlar. Afrika həkimləri 400 fili müayinə etdikdən sonra aşkar etmişlər ki, yemləri otdan ibarət olan bu nəhənglər skleroz xəstəliyinə tutulmuşlar. Halbuki indiyədək belə güman edilirdi ki, həmin xəstəliyə daha çox yağlı-piyli məhsullarla qidalananlar tutula bilərlər. Həkimlər fillərin orqanizminin bu sirrini hələ də aça bilməmişlər. Afrika fili bədəncə Asiya filindən böyük olur, onun hündürlüyü 3,5 m, ağırlığı 5 tondan çoxdur.
Fil ağır heyvan olmasına baxmayaraq, cəld və səssiz yeriyir. Filin xortumu çox elastik və güclüdür. Onun burnunun dəlikləri

xortumun ucunda yerləşir. Xortumun ucunda barmaqşəkilli ətli çıxıntı vardır.
Afrika filinin dişlərinin uzunluğu 2 metr və ağırlığı 80 kq olur. Hər 10-15 ildən bir dişlər yenisi ilə əvəz olur. Fil 60-80 il yaşayır və bu müddətdə təxminən 6 dəfə diş dəyişir. Çox möhkəm fil dişindən və sümüyündən qəşəng və nəfis şeylər hazırlanır. Dişi fil hər 3-4 ildən bir balalayır və hər dəfə 1 bala doğur. Yeni doğulmuş bala tüklə örtülü olur və bir neçə gün sonra anasının dalınca gəzir.
Fil 4 dizi olan yeganə məməli heyvandır. Hər il dünyada 2 milyon fil doğulur, bir o qədər də ölür. Fillər çimməyi çox sevdikləri üçün özlərinə su hovuzu da düzəldirlər. Onlar çayın qarşısını daşla, ağacla tutaraq dərinliyi 1,2 – 2 m olan hovuzda isti günlərdə həvəslə çimirlər.
Fillərin ölümü çox qəribədir. O, ölümünün yaxınlaşdığını hiss edərək özünü çaya və ya bataqlığa atır. Dünyada Fillərin Ümumdünya Müdafiəsi Gününün qeyd olunması ən iri məməlilər olan fillərin sayının azalmasından narahat olan ekoloqların təşəbbüsüdür.
Bildiyiniz kimi, Cənubi Afrika Respublikasında yaşayan strit-art ustası "Falko one" fillər haqqında yeni əsərlər yaradıb. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Fillər günü münasibətilə bu sərgiyə baxış keçirilir.

















Ümumdünya Fillər Günü ilə əlaqədar olaraq, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərin ən maraqlısı oxu zalında kinozalın təşkilidir. Kitabxanaçı Fillər günü ilə əlaqədar olaraq orta yaş qrup oxucular üçün 1971-ci ildə Hindistan kino filmi tərəfindən lentə alinan Haathi Mere Saathi (Fillər mənim dostumdur) adlı kinosuna baxış təşkil edir. Kino haqqında kitabxanaçı oxuculara bir qədər məlumat verir.
Bir gün avtoqəza zamanı balaca Radca cəngəlliyə düşür. Burada o çox əziyyətlər çəkir. Cəngəllikdə yaşayan fil burada onu xilas etməsəydi o, ölümə məhkum ola bilərdi. Və bu hadisədən sonra uşaqla fil arasında dostluq münasibətləri yaranır. Evinə qayıdan Ram bu fildən başqa evə üç fil də gətirir.
Günlərin bir günü Radjanın ailəsi müflis olur. Və onun yanında ən etibarlı dostları fillər qalır. Xoşbəxt günlərin birində Ramın yaxın dostu fil Radjanın oğluna baxır.
Uşaqlar filmə baxdıqdan sonra öz təəsüratlarını kitabxanaçı ilə bölüşürlər.

## Beynəlxalq Dovşanlar günü (27.09)



Beynəlxalq Dovşanlar Günü xeyriyyə təşkilatları tərəfindən ictimaiyyətin diqqətini bu heyvanların problemlərinə

cəlb etmək məqsədi ilə yaradılmışdır. Heyvanları müdafiə edənlər, dovşan xəzindən kürklərin hazırlanması və dovşan ətindən restoranlarda istifadə olunmasının ən azı azaldılmasına səy göstərirlər. Beynəlxalq Dovşanlar Günündə həm evdə, həm də təbiətdə yaşayan dovşanlara qarşı daha humanist davranılmasına, onların rahat və sağlam yaşamasına yardım edilməsinə çağırılır. Həmin günün sentyabrın sonuncu şənbəsi keçirilməsi tövsiyə olunur. Daima canavar və çaqqal kimi yırtıcılar arasında yaşayan dovşan qaçmaqla canını qurtarır. Bu işdə dərinin nazik olması ona kömək edir. Yırtıcılar onu tutanda dəri qopub ağzında qalır. Dovşan isə qaçıb gizlənir. Dərinin soyulması dovşana öldürücü təsir göstərmir. Heç bir həftə çəkmir ki, dəri əvvəlki kimi bərpa olunur. Dovşan planetimizdə çox yayılmış heyvandır. Konkret ekoloji şəraitdə yetişərək müxtəlif qruplara, formalara və növlərə ayrılmışdır. Azərbaycan ərazisində yayılan dovşan Boz dovşan tipinə aiddir. Boz dovşan Mil, Muğan, Şirvan, Ceyrançöl və başqa ovalıqlarda, dağlıq və dağətəyi rayonlarda sıx yayılmışdır. Dovşan tez çoxalan heyvandır. Yuvasını tarla kənarlarında, xəndəklərin döşündə tikir. Bəzən xırda gəmiriçilərin oyuqlarına əl gəzdirərək genişləndirib orada özünə yuva qurur. İl ərzində əsasən mart ayından başlamış sentyabra kimi 2-4 dəfə doğur. Hər dəfə 2-4 balası olur. Bu cüt dovşan ildə 6-10 başa qədər arta bilir. Yazın əvvəlində doğulan dovşan balaları həmin ilin yayında cinsi yetkinliyə çatır. Cəmi 7-8 il yaşayır.

Vəhşi dovşan - xeyirsiz heyvandır. Çox həssaslığı və cəldliyi ilə seçilir. Bütün günü yuvasından çıxmır, yemini gecə axtarır. Vəhşi dovşan çöllərdə sərbəst qaçmağı, səhərlər atılıb düşməyi sevir, birdən dörd metr atıla bilir. Saatda altmış km. sürətlə qaçır.

Beynəlxalq Dovşanlar Günü ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında sərgilərin təşkili vacibdir. Bu

əlamətdar  günlə bağlı kitabxanada əl işlərinin sərgisi ilə  yanaşı, foto sərgi də  nümayiş olunur. Sərgidə əsasən dovşanların müxtəlif növlərinin fotosu və oxucuların əl işləri sərgilənir.










Sərgi qarşısında kiçik yaşlı oxucular Abdulla Şaiqin “Uşaq və Dovşan” şeirini söyləyirlər.

**Uşaq:** Dovşan, dovşan, a dovşan!
Qaçma dayan, a dovşan!
Qaçma səni sevəndən
Can kimi bəsləyəndən.

**Dovşan:** Dura bilmərəm, dadaş,
Yanında var alabaş,
Xəbərdaram işindən
Qurtarmaram dişindən.

Beynəlxalq Dovşanlar Günü ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasının nağıl otağında yazıçı Xanimana Əlibəylinin "Dovşanın ad günü" əsəri səhnələşdirilib oxuculara təqdim olunur. Nağıl bitdikdən sonra kiçik yaşlı uşaqlar dovşan haqqında tapmacalar söyləyirlər.

**Tapmacalar:**

Kolları gəzər pusa-pusa
Qıçları uzun, qolu qısa

**Açması: Dövşan**

O nədir ki, əyri ayaq, çəpbəl qulaq,
Dodağı mırıq, ağzı cırıq?

**Açması: Dovşan**

## Ümumdünya Düyü Günü (20.09.2004)

### Düyü haqqında bilmədiklərimiz

Dənli bitkilər arasında düyü xüsusi olaraq fərqlənir. İnsan bədənin vitamin B1 ehtiyacını ödəyən bu qida növü insana enerji verməkdə, bağırsaqları yaxşılaşdırmaqda, qanda olan şəkəri təmizləməkdə, yaşlanma müddətini azaltmaqda köməkçi olur. İnsani mədə xəstəliklərindən qoruyur. Düyüdə orqanizm üçün qiymətli olan amin turşusu, nişasta, D vitamini, kalsium, lif, dəmir və riboflavin var. Sağlam immunitet sistemi üçün bu vitamuinlər təsirlidir. Nişasta baxımından zəngin olan düyü, insanı enerji ilə təmin edən qidalardan biridir. Həmçinin vitaminlər baxımından olduqca qiymətlidir. Düyüdə B1, B2, C, E vitaminləri; natrium, maqnezium, kalium, kalsium, dəmir, fosfor mineralları var. Bütün bunların sayəsində düyü bədən inkişafını dəstəkləyir, bədənə enerji və qüvvət verir. Düyü bir çox ölkələrin əsil qidasını təşkil edir.

Düyünün faydaları aşağıdakılardır:

-Doyurucudur və zehni fəaliyyətə kömək edir: düyünün tərkibində karbohidrat olduğu üçün ondan bədənin enerjisini təmin etməkdə istifadə olunur. Düyü beynin fəaliyyətinə də yardım edir.

-Həzmi asanlaşdırır, düyü iştahanı artırır, mədə xəstəliklərini müalicə edir.  Düyünün kəpəyi dizinteriya xəstəliklərinə qarşı ən yaxşı dərmandır.

-Bağırsaqlar üçün faydalıdır: düyünün tərkibində möhkəm nişasta vardır ki, mədədə həzm olunmur və bağırsağa keçəcək faydalı bakteriyaların yaranmasına yardım edır. Düyünün tərkibində olan həzm olunmayan liflər rahat şəkildə bağırsaqlara daxil olur. Qəhvəyi düyünün tərkibində bu liflərin miqdarı daha çoxdur. Qandan xolestrol nisbətini azaldaraq ürək-damar xəstəliklərinə yaxşı təsir göstərir. Düyü kəpəyinin yağı

antioksidan xasiyyətə malikdir. Düyünün tərkibində bədənə ziyan vuran xolesterin yoxdur və bədəndə xolestrenin səviyyəsini azaldır, ürək-damar sağlamlığını təmin edir.

-Bədəndə olan suyu çəkərək toksin maddələri uzaqlaşdırmağa kömək edir.

-Dəri sağlamlığına faydalıdır.

-Böyrəklərə faydalı düyü kəpəyi sidikqovucudur.

-Yüksək təzyiqi salır.

"Ümumdünya Düyü Günü" ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanovla bağlı görüş təşkil etmək olar. Kitabxanaçı təbbirə müxtəlif rayonlardan qonaq qismində iştirakçılar dəvət edə bilər. İştirakçılar müxtəlif bölgələrdə düyüdən hazırlanan yeməklərin hazırlanma qaydasından qonaqlara məlumatlar verirlər. Daha sonra söz Tahir müəllimə verilir. Tahir müəllim Azərbaycan milli mətbəxində hazırlanan milli plovlarımız haqqında qonqlara və oxuculara dolğun məlumatlar verir. Daha sonra qonaqlar Düyüdən hazırlanmış yeməklərin sərgisi ilə tanış olurlar.










Ağca qız suda,

Fəni fənnicə,

Burnu əyricə

**Açması: Düyü**

Ağca fərə suda oynar,

Zəmzəmnən belə oynar

**Açması: Düyü**

**4 Oktyabr - Ümumdünya Heyvanları Müdafiə Günü, (1931)**



Yaşadığımız dünya bizimlə eyni planetdə həyat sürən heyvanların da evidir. Lakin insan fəaliyyəti nəticəsində onların yaşaması, atrtması üçün bir çox çətinliklər ortaya çıxır. Müəyyən olunmuşdur ki, hər milyon ildən bir bütün bioloji növlərin 9 faizi məhvolur. Başqa sözlə desək, hər il canlı varlıqların 1-dən 5-ə qədər növü yox olur. Yer kürəsinin bütün tarixi boyu yoxolma sürəti beş dəfə artmışdır. Sonuncu dəfə tam kütləvi məhvolma 65 milyon il əvvəl, bütün dinozavrların nəsli kəsilərkən baş vermişdir.

Biz insanlar heyvanların dostu və qonşusu kimi onları qorumağa borcluyuq. İlk dəfə Ümumdünya Heyvanları Müdafiə Gününü 1931-ci ildə nəsli kəsilməkdə olan növlərin acınacaqlı vəziyyətinə diqqəti cəlb etmək məqsədi ilə qeyd etməyə başlamışlar. Həmin vaxtdan başlayaraq, milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, hər kəs tərəfindən oktyabrın 4-ü dünyada yaşayan heyvanların günü kimi qeyd olunur. Bu gün hər hansı insan, təşkilat və ya aksiya ilə bağlı deyil. Bu gün - planetdə yan-yana yaşayan bütün insanların və heyvanların günüdür. Bu gün, heyvanların mövcud problemləri haqqında insanların məlumatlandırılması, onların qorunması üçün maarifləndirilməsi və səylərinin birləşdirilməsi üçün çox önəmli bir gündür. Heyvanların qorunması işində hər bir insan iştirak etməlidir.

Ümumdünya Heyvanları müdafiə günü ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında ev heyvanlarının foto sərgisi təşkil olunur. Sərgi qarşısında kitabxanaçı oxuculara "Heyvanlar haqqında infoqrafika" və "Heyvanlar aləminin ensiklopediyası" adlı kitabları nümayiş etdirir və bu kitablar haqqında oxuculara məlumat verir.

Kitablar əsasən heyvanlar aləminin ensiklopediyasının mətn və şəkilləri əsasında hazırlanmışdır.

Heyvanlar haqqında infoqrafika adlı kitab 2014-cü ildə Böyük Britaniyanın "Capstone Global Library" nəşriyyatı tərəfindən "Raintree" əmtəə nişanı altında "Animal Infographics" adı ilə

nəşr olunub. Daha sonra kitabxanaya yaxın park və istirahət yerlərinin birində Ev heyvanlarının yarışı keçirilir. Qalib olan ev heyvanı münsiflər təfəfindən qiymətləndirilir.
Tədbirin maraqlı və yaddaqalan olması üçün kiçik yaşlı oxucular üçün kitabxananın kiçik oxu zalında “Qara qulaq və ag Bim” adlı kino göstərilir.




## Yumurta günü

Dünyanın bir çox ölkələrində oktyabrın ikinci cümə günü Ümumdünya Yumurta Günü (World Egg Day), deməli, bütün yumurtadan olan yeməkləri, omletləri və s. sevənlərin bayramı qeyd olunur. Yumurta ən universal qida məhsuludur, o bütün ölkələrin və mədəniyyətlərin kulinariyasında istifadə olunur. Kulinariyada yumurtadan ən müxtəlif formalarda istifadə etmək mümkündür.

Bayramın yaranma tarixi belədir: 1996-cı ildə Beynəlxalq Yumurta Komissiyası Vyanda keçirilən konfransında yumurtaya həsr olunmuş günün oktyabrın ikinci cümə günündə keçiriləcəyini elan etmişdir. Bu günlə bağlı

yumurta mövzusunda müxtəlif tədbirlər keçirilir: ən yaxşı resept, ən yaxşı şəkil, mühazirələr, aksiyalar, flaşmoblar və s.

Son zamanlar yumurtanın orqanizmə təsiri haqqında müxtəlif fikirlər səslənsə də, yeni tədqiqatlar sübut etmişdir ki, yumurtadan imtina etmək olmaz. Yumurtada yüksəkdəyərli, tez həzm olunan zülal vardır. Dünyada ən çox yumurta Yaponiyada istifadə olunur. Yaponlar gündə ən azı bir yumurta yeyirlər. Amerikalılar isə ildə bir dəfə Nəhəng Omlet Günü keçirirlər.



Ümumdünya Yumurta Günü ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında sərgi keçirilir. Sərgidə müxtəlif çür quş yumurtalarının fotoları, gündəlik mətbəximizdə yumurtadan hazırlanmış şirniyyat, yemək nümunəri və yumurta üzərində əl işləri nümayiş olunması nəzərdə tutulur. Həmçinin yumurta günü ilə bağlı kitabxanada “Yumurta haqqında bilmədiklərimiz” adlı söhbət keçirilir. Kitabxanaçı yumurta və onun faydaları haqqında ətraflı məlumat verir. Yumurta Ana südündən sonra ən yararlı qida mənbəyi olaraq dəyərləndirilir. Tərkibi zülal ilə zəngindir, hansı ki uşaqların əsas qida mənbəyidir və hamilə qadınlar üçün ən faydalı qidadır. Çiy

yumurta yemək sağlamlığa zərərli deyil, amma həzm problemi və vitamin-mineral əksikliyinə yol açacağından zərərli ola bilər. Qəhvə rəng yumurtalarla ağ rəng yumurtaların arasındakı fərq ondan ibarətdir ki, qəhvə rəng yumurtalar daha iri olur və qabığı daha sərt olur,tərkib fərqi yoxdur. Yumurta günü ilə bağlı bir çox tədbirlər keçirmək olar. Ən əvvəl kitabxanada "Yumurta günü" ilə əlaqədar olaraq, **"O yanı qaya, bu yanı qaya, içində sarı maya" adlı sərgi keçirilir.**

**"O yanı qaya, bu yanı qaya, içində sarı maya"**









Sərgi qarşısında kiçik yaçlı oxucular yumurta ilə bağlı tapmacalar söyləyirlər.

Balaca quyu,

İçində suyu,

Ağcadan agdı,

Sarıdan sarı.

**Açması: Yumurta**

O nədir ki? O yanı qaya.

Bu yanı qaya ,

İçində sarı maya

**Açması: Yumurta**

## Morj Günü (24.11.2008)



2008-ci ildə Ümumdünya Vəhşi Təbiət Fondunun (WWF) və Dəniz Məməliləri üzrə Şuranın təşəbbüsü ilə Morj Günü təsis olunmuşdur. Bu heyvanlar – planetimizin şimal

yarımkürəsində məskunlaşmış nəhəng kürəkayaqlılardır. Bu bayram təsadüfən noyabrın 24-ə salınmamışdır. Morjlar payızın son günlərində Çukot dənizinin arktik sahillərini tərk edirlər və qışlamaq üçün Berinq boğazına gedirlər. Bu yerdəyişmə zamanı onlar xüsusilə zəif və müdafiəyə möhtac olurlar. Təbiəti qoruyanlar bu bayramı elan etməklə ictimaiyyətin diqqətini morjların problemlərinə cəlb etməyə çalışmışlar. Ən əsas problem ekoloji problemdir. İqlimin istiləşməyə doğru dəyişməsi Yer kürəsində buz örtüyünün azalmasına gətirib çıxarmışdır. Nəticədə morjlar buzdan quruya keçməyə və burada özlərinə yeni yataqlar yaratmağa məcbur olurlar. Bu heyvanların belə yataqlarda kütləvi toplanması gənc morjların tələf olmasına səbəb olur. Morjların ikinci problemi insanların onların ərazilərinə nüfuz etmələridir. Şimal Buzlu okeanının şelfindəki qiymətli karbohidrogen yataqlarının insanlar tərəfindən mənimsənilməsi, gəmilərin hərəkəti morjların məhvinə səbəb olur. Ümumdünya Vəhşi Təbiət Fondunun nümayəndələri insanları okeanın sakinlərinə qayğı ilə yanaşmağa, onların problemlərinə biganə qalmamağa çağırır.

Morj çox tənbəl heyvandır, saatlarla bir yerdə uzanıb qalır. Gündüzlər suya girir. Yalnız burnunu sudan çıxarıb nəfəs alır. Gecə sahilə yaxınlaşır, yosun və ot yeyir. Morj təzə doğduğu balasını birinci günlər sinəsinə sıxıb üzür. Morju dərisinə, piyinə, ağ dişinə görə ovlayırıar. Morjun uzunluğu yeddi metrə qədər olur.

## Ümumdünya Ev heyvanları günü (30. XI)



30 noyabr ümumdünya ev heyvanları günü kimi bayram edilir. Bu gün bütün ev heyvanlarına həsr olunur. Həmçinin, bu gün pişiklər günü kimi də qeyd edilir. Pişiklər ev heyvanlarının simvolu kimi tanındığı üçün bu gün ikinci adını pişiklər günü kimi almışdır.

Bu gün dünyanın müxtəlif ölkələrində müxtəlif formalarda həyata keçirlir. Kimsə öz heyvanına qoyduğu qadağanı götürür – divar kağızını qoparmaq, pərdənin və hətda stolun üzərinə tullanmaq. Kimisi öz heyvanı ilə gözəllik salonuna gedir, kimisi öz sevimlisinə istədiyi ərzağı alır, kimisi heyvanına daha çox qayğı göstərir. Sahibsiz və vəhşi heyvanların problemləri ilə daha çox məşğul olmaq lazımdır. Bu məqsədlə itlər və pişiklər üçün xüsusi məntəqələr yaradılıb və həmin yerlərdə heyvanlar təmizlənir, müalicə olunur və onlar qocalana qədər qida ilə təmin olunur.

Ev heyvanları — insan tərəfindən əhlilləşdirilən və ona evində və ya təsərrüfatında xeyir verən heyvanlardır. Dinimiz də ev heyvanları saxlamağı təqdir edir. Lakin İslam onları incitməməyi tövsiyə edir. "Heyvanlar insanlara əmanətdir"

deyilir bir qiymətli kəlamda. O da nəql edilir ki, sevimli peyğəmbərimiz (s) evə girəndə həmişə əbasına pişik toxunarmış. Hələ qədim zamanlardan evdə heyvan saxlamaq insanlar arasında geniş yayılıb. Heyvan saxlamağın bir çox səbəbləri olub. Kimi it saxlayıb ki, ətrafdakı təhlükələrdən özünü qorusun, kimi isə başqa heyvanları bəsləyib ki, ətindən, südündən yararlansın. Müasir dövrdə heyvan saxlamağın başqa səbəbləri də var. Psixoloqlara görə, ev heyvanları insanların əsəblərini sakitləşdirir. İnsana ən çox müsbət enerji verən heyvan isə balıqlar və quşlar sayılır.

Bir çox insanlar evdə xüsusi seçilmiş heyvanları saxlamağı özləri üçün hobbi hesab edirlər. Elə insanlar da var ki, bunun tamamilə əksini düşünürlər. Düzdür, heyvanları sevsələr belə, onlarda ya həmin canlıya qarşı allergiya, ya da müəyyən fobiya olur. Bəziləri hesab edir ki, ev heyvanları olmadan yaşaya bilməzlər. Onlar heyvanların insana heç bir zərəri olmadığını, əksinə onlardan faydalandıqlarını düşünürlər.

Bir çox xalqlar var ki, onlar ev heyvanlarını hətta doğma övladlarından belə çox istəyirlər. Onun qayğısına qalır, danışır, ən yaxın dostları olaraq qəbul edirlər. Sözsüz ki, bu heyvanların yemlənməsi də ən vacib nüanslardan hesab olunur.

Ev heyvanları da nə vaxtsa vəhşi təbiətin üzvləri olub. Amma insanlar onları himayəsinə götürərək, əhilləşdirib və belə heyvanlar tədricən vəhşi təbiətdə yaşamalarına kömək edən instinktlərini itiriblər. Beləcə, həmin andan etibarən onlar vəhşi təbiətin deyil, düşünən və nə etdiyini bilən insanın dostuna çevriliblər.

Ev heyvanlarının müdafiəsi günü ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında rəsm müsabiqəsi elan olunur. Rəsm müsabiqəsi əsasən kiçik və orta yaş qrub oxucular arasında keçirilir. Müsabiqədə yaxşı rəsm çəkmək bacarığı olan uşaqlar münsiflər heyəti tərəfindən qiymətləndirilir.

**“ Beynəlxalq Dağlar günü” (11.12. 2003)**



Beynəlxalq dağlar günü 2003-cü ildə BMT Baş Məclisinin 57-ci sessiyasında planetimizin dağlıq rayonlarının inkişafı problemlərinə və həmin ərazilərdə yaşayan əhaliyə kömək göstərilməsinə diqqəti cəlb etmək məqsədilə elan olunmuşdur. Bu gün daha çox etiraf edilir ki, dağlar dünyanın içməli su ehtiyatlarının mənbəyi kimi qlobal əhəmiyyətə malikdir. Dağlar biomüxtəlifliyi ilə zəngindir, populyar istirahət və turizm yerləridir. Yer kürəsinin ümumi ərazisinin dörddə bir hissəsini əhatə edən dağlar dünya əhalisinin təxminən 12 faizinin həyat mənbəyidir.




Beynəlxalq Dağlar günü ilə əlaqədar olaraq F. Köçərli adına Respublika Uşaq Kitabxanasında fondunda yer alan “Dağlar” adlı kitabın müzakirəsini keçirmək olar. Bu kitab ilk dəfə 2014-cü ildə Böyük Britaniyanın “Capstone Library” nəşriyyatı tərəfindən “Heinemann Library” əmtəə nişanı altında “Mountains” adı ilə nəşr olunub. Dağların necə və harada yaranması, onların bitki və heyvanlar

aləmi barədə ətraflı məlumatı əks etdirən kitab “Capstone Global Library” nəşriyyatının orijinalı əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb. Kitabın Azərbaycan dilinə tərcüməsi və nəşri hüququ TEAS Press Nəşriyyat evinə məxsusdur.

TEAS Press Nəşriyyat evi “Üç alma” əmtəə nişanı ilə kiçikyaşlı uşaqlar, yeniyetmə və gənclər, eləcə də, müəllim və valideynlər üçün bədii və elmi-kütləvi kitablar nəşr edir. Kitabda Relyef formaları haqqında, Qaya və buz, Yer kürəsinin quruluşu, Qaymaqlı dağlar, Vulkanik dağlar, Qırışıq dağlar , Dağların aşınması və s. haqda maraqlı məlumatlar yer alıb.

Dağlar necə yaranır?

Qırışıq dağ nədir?

Dağın zirvəsi haradadır? kimi bir çox suıllara bu kitabda cavab tapa bilərsiniz.

Bir sözlə “Dağlar” kitabını oxumaqla siz bu füsunkar relyef forması haqqında hər şey, o cümlədən, onların necə və harada yaranması, dağlarda mövcud olan bitki və heyvanlar aləmi barədə ətraflı məlumatlar əldə edəcəksiniz. Daha sonra tədbirdə iştirak edən oxucular dağlar haqqında tapmacalar söyləyirlər.

Uzun hacı, kök hacı,

Duman başının tacı.

**Açması: Dağ**

## “Beynəlxalq Çay günü”




Demək olar ki, hər gün bir neçə dəfə həvəslə içdiyimiz çay həyatımızın ayrılmaz bir parçasına çevrilib. Ölkəmizdə elə bir ev tapa bilməzsən ki, gün ərzində orada ən azı bir dəfə çay dəmlənməsin. Bu gün səbəbsiz yerə çay haqqında danışmaq qərarına gəlmədik, axı 15 dekabr, bütün dünyada Beynəlxalq Çay günü kimi qeyd olunur.

Tarix də təsadüfən seçilməyib - "Boston çay qonaqlığı" ərəfəsidir. ( 16 dekabr 1773 il ). Xatırladığınız kimi, həmin gün Britaniyadan gələn çay yüklü bir neçə gəmini məhv edən amerikan kolonistlərinin mitinqi baş tutmuşdur. Bu hadisə Amerika inqilabının başlanğıcı oldu. Bu bayramın məqsədi çay sənayesində olan problemləri həll etmək və ənənəni qorumaqdır. İnsanın bu sehrli bitki ilə tanışlığı haqqında çoxlu əfsanələr mövcuddur. Ən geniş yayılmış fərziyyələrdən biri də möcüzəvi içkinin "səma altındakı ölkə"dən gəldiyi və e.ə III minillikdə yaşamış imperator Şen Nunun adı ilə bağlı olduğudur.

Bir gün torpaqlarını gəzən hökmdar günəşin istisindən yorulub, ağacın kölgəsində əyləşir və xəyallara dalır. Qəflətən əsən külək ağacdan bir neçə yarpağın düşməsinə səbəb olur. Yarpaqlardan biri, sehrlənmiş kimi günəş şüalarının isitdiyi bir fincan suyun içinə düşür. Şen Nun xəyal dünyasından real

həyata qayıtdığında suyun gözlənilməyən rəng aldığına, hətta ətir saçdığına diqqət yetirir. Əlbəttə, hökmdar bu kəşfini öz əyanlarına bəyan edir və beləliklə bütün dünya bu içki barədə öyrənir. Söylədiklərimiz sübut edir ki, respublikamızda özünəməxsus çay mədəniyyəti formalaşıb və odur ki, çay təkcə susuzluğu yatırma vasitəsi hesab edilmir. Yəni insanlarımız çay süfrəsi arxasında həm də söhbətləşir, deyib-gülür, bir-birinə ürəklərini açır, problemləri çözməyə çalışırlar...

*Çayın tarixi haqqında bir neçə cümlə...*

Çay bitkisinin vətəni Çin hesab edilir. Bu ölkədə çay yarpağından hazırlanmış həlimin insan orqanizmi üçün faydalı olduğu bilinəndən sonra bu bitkinin becərilməsinə başlanılıb. Tədqiqatçıların araşdırmalarına görə, çayla bağlı ilkin məlumatlara 5 min il əvvələ aid olan Çin əlyazmalarında rast gəlinir. VIII əsrdə isə çay haqqında traktat yazılıb. Həmin traktatda qeyd olunur ki, çinlilər çaydan zəhər əleyhinə vasitə kimi istifadə ediblər. Yaşıl çayı qədim zamanlarda çinlilər 72 növ zəhərə qarşı dərman hesab ediblər. XVIII əsrdə çinlilərə çayın yüzdən çox növü məlum olub və beləcə, Çində ən məşhur içkiyə çevrilib.

Çayın Növləri:
***Assam*** **-** 1830 – cu illərdə Hindistanın şimal – şərqi vilayətlərindən biri olan Assamda şotlandiyalı Robert Bryus tərəfindən kəşf edilib. Tünd rəngi və xoş iyi var.

***Seylon*** — Şri – Lankadan gələn çaylardır. Seylon çaylarının keyfiyyəti onun hansı yüksəklikdə yetişməsindən asılı olaraq dəyişir.Seylon dunyanın ən dadlı çaylarından sayılır. Ətri xoş və cəlbedicidir.

***Darjeeling -*** Dünyanın ən keyfiyyətli çaylarından biridir. Nepal yaxınlığındakı dağların zirvələrində yetişir. Darjeelingin dadı daha çox qarağat dadına bənzəyir.

***Earl Grey -*** Darjeeling, Seylon və Assam çaylarından birinin berqamont yağı ilə qarışığından hazırlanır.

***Formosa Oolong*** -İyi şaftalını xatırladır. Tayvanda yetişir.
***Gunpowder –*** Yaşıl çay növlərindən biridir. Çində yetişir. Zərif dadı və ətri var.

***Jasmine –*** Yasəmən çiçəyinin yaşıl və qara çayla qarışığı nəticəsində alınır.

***Orange Pekoe –*** ” Pekoe” kiçik yarpaq deməkdir və çayın kiçik yarpaqlarından hazırlandığını göstərir. Ətri hansı çaydan hazırlanmasından asılı olmayaraq dəyişir.

**Azərbaycan çayı...**



Çayın Azərbaycana aid olan xüsusi növü var. “Azərbaycan çayı” adlandırılan bu növ əsasən Lənkəran, Astara, Masallı və Zaqatalada becərilməkdədir. Çay xalqımızın əsrlərdən bəri istifadə etdiyi, gündəlik tələbat duyduğu zəruri içki növü sayılır. Hələ qədim dövrlərdə saraylarda keçirilən rəsmi qəbullarda qonaqlara çay təklif edilərmiş. Elçilik mərasimlərində qonaqlara çay təklifi adəti isə bu gün də davam etməkdədir. Çay bitkisi ilk dəfə respublikamıza 1912-ci ildə Lənkəran rayonuna gətirilərək

əkilib. Çay emalı zavodu da ilk dəfə 1937-ci ildə məhz həmin rayonda tikilib. Bundan sonra Azərbaycanda çayın kütləvi istehsalına başlanılıb. Azərbaycanda 1970-1980-ci illərdə 36 min hektar sahədə çay əkilib-becərilib və 34 min tondan çox çay istehsal edilib. Sovet dövründə isə çaya olan tələbatın 8-10 faizi Azərbaycan çayı hesabına ödənilib. O dövrdə Bakıda və Lənkəranda çayqablaşdıran iki nəhəng fabrik fəaliyyət göstərib və bu müəssisələrdə minlərlə işçi çalışıb. 80-ci illərin ortalarında Azərbaycanda 13,4 min hektar sahədə çay plantasiyası becərilib.

**Armudu stəkanda çay...**

Bizdə çay, adətən, armudu stəkanda içilir. Bunun konkret səbəbi olmasa da, insanlarda belə bir fikir formalaşıb ki, çayın armudu stəkanda içilməsi daha xoş təsir bağışlayır. Xalqımızda çaya xüsusi rəğbətin olması bu sahəni həm də gəlir mənbəyinə çevirib. İndi elə bir rayon, elə bir kənd tapmaq olmaz ki, orada çayxana olmasın. Çayxanalarımızda çay süfrəyə, adətən, şirniyyat, çərəz və limonla birlikdə verilir. Çox maraqlıdır ki, ölkəmizdə məclis və qonaqlıqlar həmişə çayla başlayır və çayla da yekunlaşır. Həkimlər yeməkdən sonra çay içməyi məsləhət görməsələr də, bir çoxları bu ləzzətdən özünü məhrum etmir.

**Çayın faydaları...**

Bəzi insanlar çaya o qədər aludə olublar ki, bir neçə saat çay içməyəndə başı ağrıyır. Bu, bəlkə də, psixoloji məqamdır, ancaq reallıqdır. Araşdırmalar göstərir ki, isti havada çay içilməsi əhvali-ruhiyyəni yüngülləşdirir, insanı xeyli gümrahlaşdırır. Çayın stresi aradan qaldırdığını düşünənlər də az deyil...

**Çay necə dəmlənməlidir?**

Hər ölkədə çay müxtəlif cür dəmlənir. Sübut olunub ki, çayın keyfiyyəti ilə yanaşı, onun necə dəmlənməsinin də əhəmiyyəti böyükdür. Bu mənada samovar çayının dadı bir aləmdir. Dəmlənmə prosesinə gəlincə, adətən, çaynikə onun tutumundan asılı olaraq quru çay tökülür, onun həcminin 3/4 hissəsi təzə qaynadılmış su ilə doldurulur və 4-7 dəqiqə arası dəmə qoyulur. Dəm çayı qaynamamalıdır. Belə olarsa, çayın keyfiyyəti aşağı düşür və ətri itir.

**Çay süfrəsi...**

Öncə qeyd etdiyimiz kimi, ölkəmizdə çay yalnız susuzluğu yatırtma vasitəsi olma mərhələsini bir növ geridə qoyub. Azərbaycanda susuzlayıb-susuzlamamasından asılı olmayaraq, qonaq qarşısına çay qoyulur. Bu, hər şeydən öncə, qonağa hörmətin əlaməti sayılır. Elçilik mərasimlərimizin də tacı çay sayılır. Hər halda, mərasimin sonunda razılıq əlaməti olaraq, şirin çayın içilməsi də buna dəlalət edir. Evdə ürəyi darıxan, yaxud şəhərə gəzməyə çıxan insanların əsas dayanacaq nöqtəsi çox zaman çayxanalar olur. Çayxanalar həm də dost-tanışların görüş yeridir. Bizdə bir çox problemlərin müzakirəsi də məhz çay süfrəsi arxasında aparılır. İllərlə çıxış yolu tapılmayan bir problem bəzən yarımsaatlıq çay süfrəsi arxasında oturub müzakirə olunmaqla həll edilir. Biz də sizə ətirli çay süfrəsi arxasında mənalı istirahət və könülxoşluğu arzulayırıq.

Beynəlxalq Çay günü ilə əlaqədar F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Çayın müxtəlif növləri ilə bağlı sərgi keçirilir.

**“Ətirlisən, Dadlısan Cay...”**









Sərgiyə baxış keçiriləndən sonra Milli Konservatoriyanın tələbələri sözləri Seyfəddin Dağlıya, musiqisi Cahangir Cahangirova aid olan “Cay Gəlsin Çay” mahnısını səsləndirirlər.

**Ədəbiyyat siyahısı:**

**İnternetdə: www.books.google.com**


1. Heyvanlar aləminin ensiklopediyası.- Bakı: Maarif, 2006.-63 s.
2. Heyvanlar aləminin ensiklopediyası.-Bakı: Gənclik, 1996.-64 s.
3. Heyvanlar haqqında infoqrafika.-Bkı: “TEAS PRESS” nəşriyyatı:”Üç alma uşaq ədəbiyyatı”,2-16.-32 s.
4. Planetin qəribə quşları.- Bakı: “Əli və Nino” nəşriyyatı, 2013.-32 s.
5. Ətraf mühit haqqında infoqrafika.-Bakı: “TEAS PRESS” nəşriyyat evi, “Üç alma uşaq ədəbiyyatı”, 2016.-32 s.
6. Dağlar.- Bakı: “TEAS PRESS” nəşriyyat evi, “Üç alma uşaq ədəbiyyatı”, 2015.-32 s.
7. Tapmacalar.-Bakı: Şərq-Qərb, 2014.-208 s.

**Uşaqların maraq dünyasında əlamətdar tarixi günlər №3**

**(metodik vəsait)**

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 27
Çapa imzalanmışdır:15.05.2017
Tirajı:100
Pulsuz